# Moldova və Azərbaycan dostluq əlaqələri yüksələn xətlə inkişaf edir

Moldova Respublikasının Parlamentində Azərbaycan Respublikası ilə Moldova Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyinə həsr olunmuş fotosərgi və konfrans keçirilmişdir. Tədbir Azərbaycan Respublikasının Moldovadakı səfirliyi tərəfindən Moldova Parlamenti ilə birgə təşkil olunmuşdur. Tədbirdə Azərbaycan Milli Məclisinin deputatları, Moldova Parlamentinin 20-yə yaxın aparıcı deputatı, Moldova Xarici işlər və Avropaya İnteqrasiya Nazirliyinin rəhbərliyi, xarici diplomatlar və Azərbaycan diaspor nümayəndələri iştirak etmişdirlər.



Moldovanın Parlamentində təşkil olunan Azərbaycan-Moldova ikitərəfli münasibətlərini 25 il ərzində əks etdirən fotosərgidə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Moldovaya səfəri, Prezident İlham Əliyevin Moldovaya 2005-ci və 2009-cu illərdə səfərləri, Moldovanın rəhbərliyinin Azərbaycana səfərləri və parlamentlərarası ikitərəfli görüşlər barədə şəkillər nümayiş olunmuşdur. Sərgi qonaqlar tərəfindən böyük maraqla qarşılanmışdır.

Konfransda iştirak edən Moldova Parlamentinin vitse-spikeri Vladimir Vityuk çıxışında iştirakçıları bu əlamətdar tarix ilə təbrik etmiş, Azərbaycan-Moldova münasibətlərinin tarixindən danışmışdır. O, iki dövlət arasında 250-yə yaxın saziş və konvesiyalar bağlanıldığını qeyd edərək, iki ölkə arasında gələcək əməkdaşlığın inkişafı üçün böyük potensialın olduğunu bildirmişdir. Həmçinin Azərbaycan ilə Moldova parlamentlərarası dostluq qrupunda Moldova tərəfindən 30 nümayəndənin olduğunu bildirən millət vəkili, bunun Moldova tərəfinin Azərbaycana böyük maraq və hörmətlə yanaşdığının göstəricisi kimi qiymətləndirmişdir.

Azərbaycanın Moldovadakı səfiri Qüdsi Osmanov iştirakçıların diqqətinə Azərbaycan ilə Moldova arasında ənənəvi dostluq və qardaşlıq münasibətlərin olduğunu çatdırmışdır. O qeyd etmişdir ki, Dağlıq Qarabağ və Dnestryanı münaqişələrində Azərbaycan ilə Moldova beynəlxalq qurumlarda və institutlarda bir mövqedən çıxış edirlər. İki ölkə arasında əməkdaşlığın bütün sahələrdə inkişaf etdiyini vurğulayan səfir, bu ilin sonuna kimi bir çox Moldova rəsmilərinin Azərbaycana səfər edəcəklərini bildirmişdir.

Azərbaycan Respublikasının Milli Məclisinin deputatı, Milli Məclisin Gənclər və İdman Komitəsinin sədri Fuad Muradov iştirakçıları Azərbaycan Respublikası Milli Məclisi adından əlamətdar tarix ilə təbrik etmişdir. Avronest PA iclasında iştirak üçün Moldovada səfərdə olan millət vəkili Moldova dövləti və xalqı barədə xoş təəssüratlarını bölüşmüşdür. O qeyd etmişdir ki, Moldova Parlamentinin binasında 25 illik münasibətlərə həsr olunan tədbirin keçirilməsi ölkələr arasında gələcək əməkdaşlığın genişlənməsi üçün gözəl nümunədir. F.Muradov iki dövlət arasında hərtərəfli əməkdaşlıq üçün böyük imkanların olduğunu vurğulayaraq, bir çox beynəlxalq qurumlarda, o cümlədən GUAM, Qara dəniz iqtisadi əməkdaşlığı, Avronest, AŞPA və digər təşkilatlarda Azərbaycan ilə Moldova arasında sıx əməkdaşlıq barədə danışmışdır. Ölkələrimizin oxşar ərazi problemləri ilə rastlaşdığını qeyd edən deputat bu münaqişələrin yaxın zamanda həll olunacağına, işğal altında olan ərazilərin bərpasında hər iki ölkənin birgə iştirak edəcəyinə ümid etmişdir.

Moldova Parlamentinin deputatı, Parlamentin dövlət idarəçiliyi və regional inkişaf komitəsinin sədri xanım Violetta İvanov bir çox məsələlərdə iki ölkənin bir-birinin təcrübəsinin öyrənilməsinin



faydasından söz açmışdır. Millət vəkili iki dövlət arasında bütün səviyyələrdə dialoqun davam etdirilməsi və əlaqələrin fəallaşmasının vacibliyini vurğulamışdır.

Moldova parlamentinin iqtisadiyyat, büdcə və maliyyə komitəsinin sədr müavini, deputat Oleq Reydman Moldovanın Azərbaycana böyük maraqla yanaşdığını vurğulamışdır. O, iki ölkə arasında ticarət dövriyyəsinin artması üçün həm Azərbaycanda, həm Moldovada turizm imkanlarının istifadəsinin vacibliyini bildirmişdir.

Moldova Xarici İşlər və Avropa inteqrasiya nazirinin müavini Lilian Dariy 25 il ərzində iki ölkə arasında əldə olunan nailiyyətlərdən söz açmışdır. O siyasi-diplomatik əlaqələrin möhkəmlənməsi üçün iki dövlət arasında ciddi hüquqi bazanın olduğunu bildirmişdir. Dövlətlərarası münasibətlərə toxunan nazir müavini, əlaqələrin inkişafında humanitar əməkdaşlığın xüsusi rolunu vurğulamışdır.

Moldova Xarici İşlər və Avropaya İnteqrasiya Nazirliyinin xüsusi məsələlər üzrə səfiri İon Stavila Azərbaycan Xarici İşlər Nazirliyinin rəhbərliyi ilə görüşləri barədə xoş təəssüratlarını bölüşmüş, iştirakçılara GUAM-ın yaradılması ilə bağlı xatirələrini danışmışdır.

Moldovanın Türkiyədə keçmiş səfiri, professor Viktor Tsvirkun iki dövlət arasında əsas rolu Moldova ilə Azərbaycan xalqları arasında mövcud olan dostluq və insanlar arasında xoş münasibətlərin təyin etdiyini bildirmişdir. Eyni zamanda, o iştirakçılara xatırlatmışdır ki, məhz Moldova Parlamentinin nümayəndəsi qorxmadan Ermənistan Parlamentində çıxışı zamanı Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş əraziləri barədə söz açmışdır.

Moldova azərbaycanlıları Konqresinin sədri Vüqar Novruzov çıxışında Moldovanın bir çox azərbaycanlılar üçün ikinci Vətən olduğunu bildirmişdir. O, Moldovada Azərbaycan diasporu tərəfindən həyata keçirilən bir çox layihələrdən danışmış, ölkələr arasında münasibətlərin inkişafı üçün xalq diplomatiyasının xüsusi rol oynadığını vurğulamışdır.

Sonda Azərbaycanın Moldovadakı səfiri Qüdsi Osmanov, AR Milli Məclisin deputatı Fuad Muradov ilə birgə Moldova Parlamentinin kitabxanası üçün hədiyyə olaraq Azərbaycanın tarixi, mədəniyyəti barədə, o cümlədən Dağlıq Qarabağ həqiqətlərini əks etdirən kitabları Parlamentin sədr müavini Vladimir Vityuka təqdim etmişlər.

**Qədir ASLAN,**
**"Respublika".**